# Əlilliyi olan şəxslər cəmiyyətin tamhüquqlu üzvləridir

**Ağstafada Beynəlxalq Əlillər Günü ilə bağlı tədbir keçirilmişdir. İştirakçılar öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla yad etmişlər.**

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov açaraq diqqətə çatdırmışdır ki, ölkəmizdə əlillər, sağlamlıq imkanı məhdud olan insanlar hərtərəfli dövlət dəstəyi ilə əhatə edilmişlər: "Bu gün əlillərin reablitasiyası, sosial müdafiəsinin gücləndirilməsi, həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin olunması istiqamətində davamlı iş aparılır və bununla bağlı qəbul edilmiş dövlət proqramları uğurla icra olunur. Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi də dövlət siyasətinin əsas istiqamətlərindən biridir".

Sonra Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Qazax-Tovuz Regional Filialının Ağstafa rayon şöbəsinin müdiri  Asif Qəmbərov çıxış edərək əlillərin sosial rifahının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərdən, bu qəbildən olan insanların hüquqlarının qorunması və onların cəmiyyətin həyatında bərabərhüquqlu iştirakının təmin edilməsi məqsədi ilə icra olunan layihələrdən danışmışdır.

44 günlük Vətən müharibəsi iştirakçıları - Ağstafa şəhər 3 saylı tam orta məktəbin müəllimi Arif Vəliyev və 2-ci qrup əlil Kamil Hüseynov  ölkəmizdə fiziki sağlamlığı məhdud olan insanlara dövlətin göstərdiyi diqqət və qayğıdan razı qaldıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 5 dekabr, № 265.- S.10.